***Konfrans iştirakçılarının nəzərinə!***

Fövqəladə Hallar Nazirliyinin Akademiyasında 07 may 2025-ci il tarixində saat 11:00-da Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş ***"Fövqəladə hallarla mübarizənin aktual problemləri"*** mövzusunda X elmi-texniki konfransı keçiriləcəkdir.

Professor-müəllim heyəti, mütəxəssislər, doktorant və gənc tədqiqatçılar konfransın işində iştirak etməyə dəvət olunurlar.

**Konfransın bölmələri**

- Həyat fəaliyyətinin problemləri;
- Yanğın təhlükəsizliyi problemləri;
- Təbiət elmləri və təhlükəsizlik problemləri;
- Fövqəladə hallardan müdafiənin hərbi və sosial problemləri.

**Konfrans materialları**

Konfransda iştirak etmək istəyənlər məruzə materiallarını ***28 aprel 2025-ci il tarixinədək*** Fövqəladə Hallar Nazirliyinin Akademiyasının Elmi-tədqiqat şöbəsinə **Reyhana.Mammadtaghiyeva@fhn.gov.az** mail ünvanına göndərə bilərlər. Təşkilat Komitəsi tərəfindən müsbət rəy alan və qeyd olunan tələblərə uyğun məqalələr konfransın məruzələr toplusunda dərc olunacaq, iştirakçılar sertifikatla təltif ediləcəklər.

**Məqalələrin tərtibi qaydaları**

Məqalənin mətni azərbaycan dilində, Times New Roman şrifti ilə 12 ölçüdə, bir intervalla yazılmalıdır. Səhifənin ölçüləri A4 (210x297mm) formatlı, yuxarı və aşağıdan 25 mm, soldan və sağdan 20 mm boş yer saxlamaqla çap olunur. Məqalənin həcmi 4-8 səhifədən çox olmamalıdır.

Tənliklər və düsturlar mətndən bir boş sətirlə ayrılmalıdır. Düsturları, ardıcıl olaraq, sətrin sağ tərəfində dairəvi mötərizələrdə yerləşdirilmiş ərəb rəqəmləri ilə nömrələmək lazımdır. Məqalənin nəticələrində, elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və alınan əsas nəticələr aydın şəkildə verilməlidir. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla verilməlidir. Onlara istinad [1] və ya [1, s.95] kimi işarə olunmalıdır. Ədəbiyyat siyahısında son 5-7 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir. Məqalədə müəllif(lər)in işlədiyi müəssisə və onun ünvanı, müəllifin elektron poçt ünvanı göstərilməlidir.

Məqalədə aşağıdakı ardıcıllıq gözlənilməlidir:

- UOT indeks (qalın, 11 ölçü, böyük hərflərlə, məqalənin yuxarısında, sol hissədə abzasdan yazılmalı);
- məqalənin adı (qalın, 12 ölçü, böyük hərflərlə yazılmalı, UOT indekslə məqalənin adı arasında iki interval buraxılmalıdır);
- müəllif(lər)in soyadı, adı, atasının adı (qalın, 12 ölçü, kiçik hərflərlə yazılmalı, məqalənin adı ilə müəllif(lər)in soyadı arasında bir interval buraxılmalıdır);
- təşkilatın adı, ünvanı, E-mail (12 ölçü, kursiv, kiçik hərflərlə yazılmalı, müəllif(lər)in soyadı ilə təşkilatın adı, ünvanı, E-mail arasında bir interval buraxılmalıdır);

- **Xülasə**
- **Abstract**
- **Аннотация**
- **Açar sözlər**
- **Key words**
- **Ключевые слова**
- **Giriş**
- **Məsələnin qoyuluşu**
- **Əsas hissə**
- **Nəticə**
- **İstifadə olunmuş ədəbiyyat**

Ünvan: *Suraxanı rayonu, Hövsan qəsəbəsi, Elman Qasımov küçəsi-8, FHN-nin Akademiyası*
Əlaqə telefonu: *(012)512-41-94; (012)512-41-58.*